**"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1230; 2006, 9, maddə 822, 11, maddə 1000; 2007, 4, maddə 387, 10, maddə 1021, 12, maddə 1337; 2009, 2, maddə 144; 2010, 6, maddə 558) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ayrı-ayrı dövlətlərə ixrac rejimləri"nin adında və 1-ci hissəsində ismin müvafiq hallarında verilmiş "rejimləri" sözü ismin müvafiq hallarında "gömrük prosedurları" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "İxrac nəzarətinin aparılması Qaydaları"nın 1.2-ci və 2.2-ci bəndlərində "rejimlərinə" sözü "gömrük prosedurlarına" sözləri ilə əvəz edilsin;

1.3. həmin qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası"nın 2.2.4-cü yarımbəndində "rejiminin" sözü "gömrük prosedurunun" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 13 sentyabr 2012-ci il
199